UOT911.3

# MİQRASİYA PROSESLƏRİNİN NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DEMOQRAFİK VƏZİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNƏ TƏSİRİ

**H.Ə.TAHİROVA**
***Bakı Dövlət Universiteti***
***etba 85@box.az***

*Uzun illər miqrasiya proseslərinin Naxçıvan Muxtar Respublikasının demoqrafik vəziyyətinə göstərdiyi təsir nəticəsində burada əhalinin cins, yaş, doğum, ölüm, təbii artım, nikah, əhalinin məskunlaşması, sıxlığı və s. dəyişmişdir. Belə ki, miqrasiya edən əhalinin əksəriyyətinin əmək qabiliyyətli kişilər olması cins – yaş tərkibinin pozulmasına, nikahlılıq göstəricisinin aşağı düşməsinə, bu isə öz növbəsində əhalinin təbii artımının azalmasına, məskunlaşma mütənasibliyinin pozulmasına gətirib çıxarmışdır.*

*Bu baxımdan NMR-da miqrasiya proseslərinin demoqrafik vəziyyətə təsirinin araşdırılması və təhlil olunması zəruri hesab olunur.*

**Açar sözlər:** miqrasiyanın intensivliyi, miqrasiyanın səmərəliliyi, daxili və xarici miqrasiya, təşkilolunmuş və təşkilolunmamış miqrasiya, könüllü və məcburi miqrasiya, miqrasiya artımı, demoqrafik proseslər, əmək ehtiyyatları.

Bəşəriyyətin inkişafında mühüm rol oynayan və mürəkkəb sosial proses olan əhalinin miqrasiyası ayrı-ayrı ölkələrin və bütövlükdə regionların müxtəlif iqtisadi inkişaf səviyələri ilə sıx sürətdə bağlıdır. Son illərdə sürətli sosial-iqtisadi inkişaf, energetika və nəqliyyat sahələrində beynəlxalq kommunikasiyaların genişlənməsi, eyni zamanda ölkəmizin geosiyasi mövqeyi Azərbaycan Respublikasında miqrasiya proseslərinin intensivləşməsinə səbəb olmuşdur. Bu baxımdan, ölkənin inkişafı və təhlükəsizliyinin təmin edilməsi, milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında, miqrasiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini və inkişaf etdirilməsini dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini və bu sahədə beynəlxalq əməkdaşlığı zəruri edir.

Azərbaycan Respublikasının bütün regionlarında olduğu kimi miqrasiya prosesləri uzun illər Naxçıvan Muxtar Respublikasının demoqrafik vəziyyətinin formalaşmasında xüsusi rol oynamışdır.

Əhali miqrasiyasının təsnifatına onun istiqamətləri, təşkili dərəcəsi, xüsusiyyətləri və səbəbləri aid edilir. İstiqamət nöqteyi-nəzərindən əhalinin miqrasiyası həm regionların öz daxilində, həm də respublikanın iqtisadi rayonları

arasında baş verir. İkinci proses respublikadaxili miqrasiya adlanır (3). Respublikadaxili miqrasiyalara kənddən-kəndə (əsasən kiçik kəndlərdən daha böyük kəndlərə), kənddən şəhərə və qəsəbələrə olan əhali axınları daxildir. Miqrasiya nəticəsində əhalinin sayı bir regionda artır digərində isə müvafiq sürətdə azalır. Bu da əhalinin rayonlar arasında paylanmasını və idarə olunmasını çətinləşdirir. Naxçıvan Muxtar Respublikasında daxili miqrasiya əsasən əhalinin dağ kəndlərindən düzənlik ərazilərə, xüsusilə də Naxçıvan şəhərinə axını ilə səciyyələnir. Bundan başqa qış mövsümündə təbii qaz və elektrik enerjisi təminatı ritminin pozulması ilə əlaqədar muxtar respublika əhalisinin respublikamızın digər iqtisadi rayonlarına (xüsusi ilə də Abşeron iqtisadi rayonuna) miqrasiyası da müşahidə olunur. Muxtar Respublikanın daxilində baş verən əhali yerdəyişmələri, təbii ki, ümumilikdə əhalinin artımına və azalmasına təsir göstərmir. Lakin muxtar respublikanın kənd yerlərində əhalinin azalması və şəhər yerlərində əhali sıxlığının artması ilə nəticələnir (6).

Əhalinin ümumi sayına ölkələrarası miqrasiyalar təsir göstərir və hər iki miqrasiya növü respublikanın iqtisadi-sosial həyatı ilə sıx bağlı olur.

Təşkilatçılıq dərəcəsinə görə miqrasiyalar iki - təşkil olunmuş və təşkil olunmamış miqrasiyalara ayrılır. Təşkil olunmuş miqrasiyalar dedikdə dövlət orqanları tərəfindən həyata keçirilir və əmək ehtiyatlarının daha səmərəli yerləşdirilməsi məqsədilə əhalinin bir inzibati ərazidən digərinə köçürülməsini təmin edir. Təşkil olunmuş miqrasiya miqrantların dövlət tərəfindən maddi imtiyazlarla təmin olunması ilə müşayiət olunur. Təşkil olunmuş miqrasiyalar əsasən əhalinin bir ərazidən digərinə köçürülməsi ilə əlaqədar olaraq ictimai təşkilatların çağırışı, işçi qüvvəsinin toplanması, xidməti işlə əlaqədar digər inzibati ərazilərə köçürülməsi, peşə məktəbi məzunlarının, gənc mütəxəsislərin bölgüsü və təyinatı və s. ilə bağlıdır. Hazırda muxtar respublikada ali məktəb məzunlarının bölgüsü və təyinatı, onların güzəştli şərtlərlə (mənzillə təmin olunma, əmək haqqına əlavə və s.) dağ və sərhədyanı kəndlərdə məskunlaşmasına şərait yaradılması həyata keçirilir (8).

Təşkil olunmamış və ya fərdi miqrasiya dedikdə maddi vəziyyətini yaxşılaşdırmaq, təhsil almaq, faliyyət növünün dəyişməsi, yeni işə keçmək və ya vəzifəyə təyin olunmaq nəticəsində bir regiondan digərinə köçmək, məişət və mədəni xidmətin daha yüksək olduğu rayonlara fərdi yerdəyişmə, ailə vəziyyəti ilə əlaqədar olaraq, məsələn, evlənmək və ya hər hansı qohumun yanına köçmək nəzərdə tutulur. Bu miqrasiyaların dövlət tərəfindən idarə olunması üçün kişi və qadın əməyindən daha səmərəli istifadə olunması məqsədilə istehsalın rayonlar üzrə müvafiq qaydada yerləşdirilməsi, köçmələr zamanı maddi yardımın göstərilməsi və s. kadr axının qarşısını almağa yönəlmiş imtiyazların (mənzillə təmin edilmə, əmək haqqına əlavələr və s.) tətbiqi bu prosesə böyük təsir göstərir.

Naxçıvan Muxtar Respublikasının uzun müddət anklav şəraitdə yerləşməsi burada əhalinin cins tərkibinin respublikamızın digər rayonlarına nisbətən sabit qalmasına öz təsirini göstərmişdir. Lakin son illər Muxtar Respub-

likada sosial – iqtisadi vəziyyətin çətin olması və işsizlik problemi ilə əlaqədar olaraq əhalinin Türkiyə və MDB ölkələrinə miqrasiyası əhalinin cins tərkibinin pozulmasına gətirib çıxarmışdır. Miqrasiya edən əhali arasında (əsasəndə əməkçi miqrantlar) əmək qabiliyyətli kişilərin üstünlük təşkil etməsi yerlərdə qadınların sayının artması ilə nəticələnir. Bu da öz növbəsində demoqrafik vəziyyətin dəyişməsinə gətirib çıxarır (2).

Miqrasiya prosesi növündən asılı olmayaraq işçi qüvvəsinin və əmək ehtiyatlarının regionlar arasında mütənasib qaydada bölüşdürülüb paylanmasına öz tənzimləyici təsirini göstərməlidir.

Yaşayış yerinin dəyişilməsinə miqrantın münasibətindən asılı olaraq miqrasiya iki növə bölünür; könüllü və məcburi.

Ötən əsrin 80-ci illərinin sonlarında siyasi və sosial problemlemlərdən yaranan narazılıq milli münaqişələrə, insan tələfatı və qaçqınlar ordusu ilə müşahidə olunan proseslərin yaranmasına gətirib çıxarmışdır. Bu proses Naxçıvan Muxtar Respublikasından da yan keçməmiş və həmin dövrlərdə baş verən ictimai-siyasi proseslərlə əlaqədar olaraq ermənilərin bu regionu tərk etməsi və Ermənistandan deportasiya edilmiş 250 min nəfərdən çox azərbaycanlıların bir hissəsinin burada məskunlaşması əhalinin demoqrafik vəziyyətinin dəyişilməsinə öz təsirini göstərmişdir. Respublikanın regionları arasında məcburi köçkünlərin (0,2%) və qaçqınların (0,6%) ən az məskunlaşdığı ərazi Naxçıvan Muxtar Respublikasıdır (4).

Əhalinin və əmək ehtiyatlarının respublika ərazisi üzrə bərabər paylanması təsərrüfatın vacib problemlərindən biridir. Lakin qeyd edilən müddətdə daxili və xarici miqrasiyalar əhalinin ərazi üzrə bölüşdürülməsinə əmək ehtiyatlarının paylanması prinsiplərinin pozulmasına öz mənfi təsirini göstərmişdir. Miqrasiya prosesləri məhsuldar qüvvələrin inkişafı ilə bağlı olub ictimai inkişafın, demək olar ki, bütün tərəflərini əhatə edir. Buna görə də miqrasiya əhalinin ərazi üzrə yerləşdirilməsi sisteminin dəyişilməsi və yaşayış məntəqələrinin inkişafı proseslərinin əsas tərkib hissəsi hesab olunur.

Daxili və xarici miqrasiyanın inkişaf prosesi əhalinin inkişafının müxtəlif dövrlərində müxtəlif təsir qüvvəsinə malik sosial-iqtisadi, bioloji və milli amillərin təsiri altında baş verir. İqtisadiyyatın inkişaf yollarının və idarəetmənin daha səmərəli formalarının araşdırılmasında idarəolunan miqrasiyanın əhəmiyyəti idarəolunmayan miqrasiyadan daha çoxdur. Hazırkı dövrdə Respublikanın iqtisadi rayonlarının bir hissəsində əmək ehtiyatları çatışmazlığı, digər hissəsində isə artıqlığı müşahidə olunur. Bu proses Naxçıvan Muxtar Respublikasında özünəməxsusluğu ilə seçilir. Belə ki, muxtar respublikanın əsasən dağlıq və sərhədyanı (Ermənistanla həmsərhəd) rayonlarında əmək ehtiyatları çatışmazlığı düzənlik rayonlarına nisbətən daha çox nəzərə çarpır. Bundan başqa xarici miqrasiyaların intensivliyi əhalinin daha da sürətli inkişafını ləngidir. Muxtar Respublikada əmək potensialının formalaşmasına mənfi təsir göstərir. Zaman keçdikcə miqrasiya proseslərinin dəyişilməsi və onun sosial iqtisadi şəraitlə uyğunlaşması zərurəti ortaya çıxır. Miqrasiya

proseslərinin bütövlükdə hərtərəfli öyrənilməsi üçün miqrasiyanın mütləq və nisbi göstəricilərindən, dinamik sıranın təhlilindən, qruplaşma və balans metodlarından geniş istifadə olunur. Naxçıvan Muxtar Respublikasında əhalinin miqrasiyası barədə göstəricilər DİN-nin nəzdində xidmət göstərən Miqrasiya Xidməti Şöbəsinə təqdim olunan gəlmə və getmələrin qeydiyyatı üzrə statistik qəbzlərin təhlili nəticəsində əldə olunur (6). Buna baxmayaraq "gələnlərin sayı" və "gedənlərin sayı" anlayışları bir qədər şərtidir. Belə ki, eyni şəxs il ərzində yaşayış yerini bir neçə dəfə dəyişə bilər.

Miqrasiyanın səmərəliliyi miqrasiya artımının ümumi miqrasiyaya, yəni gələnlərin və gedənlərin ümumi sayına nisbətinin faizlə ifadəsidir (3).

Azərbaycan Respublikası, o cümlədən də Naxçıvan Muxtar Respublikası Keçmiş Sovetlər İttifaqının tərkibində olduğu zaman, demək olar ki, buraya kənardan axın müşahidə olunmamışdır. Lakin 1990-cı ildən başlayaraq respublikada miqrasiyanın növləri və istiqamətləri müxtəlif formalarda daha intensiv inkişaf etməyə başlamışdır. Buna bir tərəfdən məlum hadisələr zəminində baş vermiş qaçqınlar ordusunun axını digər tərəfdən isə daha da ağırlaşmış sosial-iqtisadi problemlərin təsiri altında dolanışıq məqsədilə xarici ölkələrə üz tutanların sayının sürətlə artması böyük təsir göstərmişdir (7).

Naxçıvan Muxtar Respublikasında əhalinin xaricə miqrasiyası 1992-ci ildən Türkiyə ilə Naxçıvan arasında "Ümüd" körpüsünün açılışından sonra başlanıb. Həmin dövrdən əhalinin (əsasən də, əmək qabiliyyətli yaşda olan kişilərin) Türkiyəyə axını başlandı. Muxtar Respublikanın əhalisi bu ölkəyə əsasən işləmək məqsədilə gedirdi. Hər il Türkiyə Respublikasına 70-90 min nəfər əhali miqrasiya edirdi. Bu əmək miqrasiyasında Şərur rayonunun əhalisi digər inzibati rayonlara nisbətən daha aktiv iştirak edirdi. Təxminən 2000-ci ildən başlayaraq Muxtar Respublikanın əhalisi ailəli şəkildə Türkiyəyə daimi yaşamaq məqsədilə köç etməyə başladılar (8).

MDB ölkələrindən daha çox Rusiya Federasiyasına gedənlərin sayı üstünlük təşkil edirdi. Muxtar Respublikanın Ordubad inzibati rayonunun əhalisi bu ölkəyə getməyə daha çox üstünlük verirdilər.

Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında rəqqasvari miqrasiya mövcuddur. Belə ki, əhali maddi vəziyyətini yaxşılaşdırmaq üçün (ayda bir dəfə sərhədi keçmək şərtilə) gün ərzində İran İslam Respublikasına gedib qayıda bilər.

Lakin son illər MR-da aparılan quruculuq işləri, əhalinin sosial təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması əhalinin iş axtarmaq üçün xarici ölkələrə getməsinin qarşısını nisbətən almağa müvəffəq oldu. Ötən illərlə müqaisədə Türkiyə Respublikasına gedənlərin sayı xeyli azalaraq 2005-ci ildə 60 min nəfərdən, 2008-ci ildə 40 min nəfərə enmişdir. Bu da, muxtar respublikanın iqtisadiyyatında müşahidə olunan sabit artım tempi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və səmərəli məşğulluğun təşkili üçün əlverişli şəraitin yaradılması ilə bağlıdır. Bu istiqamətdə aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, təkcə 2008-ci ildə 7 minə yaxın

yeni iş yeri açılıb. Onlardan da 4500-ü daimi iş yerləridir.

Həmçinin yeni iş yerlərinin açılması, həyat səviyyəsinin getdikcə yüksəlməsi Türkiyəli iş adamlarının və işçilərinin diqqətini cəlb etməyə başlamışdır. Hazırda Naxçıvan Muxtar Respublikasında 500-ə yaxın Türkiyəli işçi çalışır və 17 türk iş adamı burada fəaliyyət göstərir. Onların açdıqları müəsisələrdə onlarla yerli vətəndaş çalışır. NMR-na yatırılan xarici investisiyaların 40% - i Türkiyə Respublikasının payına düşür. Bütün bu proseslər nəticəsində muxtar respublikanın şəhər və kənd əhalisinin miqrasiyası nəzərəçarpacaq dərəcədə intensivləşmiş və inzibati rayonlarda yaranan miqrasiya prosesləri onun göstəricisinə müsbət təsir göstərmişdir. Beləliklə, respublika ərazisində əhalinin sosial tərkibi dəyişilmiş və bu da demoqrafik proseslərdə, o cümlədən də cins, yaş, doğum, ölüm, təbii artım, əhalinin məskunlaşması, sıxlığı və s. formalaşmasında öz əksini tapmışdır (6).

Əhalinin tərkibində kişilərin miqrasiyası qadınlara nisbətən bir neçə dəfə yüksək olmuşdur. Qeyd etmək lazımdır ki, miqrasiya edənlər arasında cavan yaşda olan adamlar (xüsusi ilə əmək qabiliyyətlilər) daha çox üstünlük təşkil edir. Bu da, yaş strukturunun formalaşmasında öz təsirini göstərir. 2008-ci ilin statistik məlumatına görə muxtar respublika əhalisinin ümumi sayının 198 min nəfərini iqtisadi fəal əhali təşkil edir. Bu da muxtar respublika əhalisinin 49,5% - dir.

Əhalinin miqrasiyasının, demək olar ki, əsasını şəhər yaşayış yerləri təşkil edir. Kənd yaşayış yerlərində miqrasiya saldosu çox aşağıdır. Miqrasiya vəziyyətinin müəyyənləşdirilməsində əhalinin hər min nəfərinə düşən miqrantların say göstəricisi mühüm əhəmiyyət kəsb edir. Bu göstərici respublikanın iqtisadi rayonları üzrə bir qədər fərqlidir. Əhali axınının (emiqrantların) daha çox müşahidə olunduğu region Naxçıvan Muxtar Respublikasıdır. Muxtar Respublikaya gələnlərin sayı, buradan gedənlərin sayından xeyli az olmuşdur. Buna görə də, miqrasiyanın saldosu mənfi 1,7 min nəfər təşkil etmişdir ki, bu da, muxtar respublika əhalisinin təbii artımının 18%-nə bərabərdir. Bu göstərici muxtar respublikanın ayrı-ayrı rayonlarında müxtəlifdir. Belə ki, Naxçıvan şəhərində – 0,3 min nəfər, Odubad, Şahbuz, Şərur rayonlarında 0,1 min nəfər, Babək, Culfa, Sədərək, Kəngərli rayonlarında sıfıra bərabər olmuşdur. Sonrakı illərdə əhalinin miqrasiyasının və miqrasiya dövriyyəsinin aşağı düşməsi prosesi güclənmişdir. Son on il ərzində respublikaya gələn əhalinin 1,1%-i, respublikadan gedənlərin isə 1,5%-i Naxçıvan Muxtar Respublikasının payına düşür. Burada miqrasiya artımı 0,4% olmuşdur.

Əhalinin sosial quruluşunun bu yöndə dəyişilməsi demoqrafik vəziyyətin öyrənilməsini və bu sahədə tədqiqatların aparılmasını zəruri edir. Qeyd etmək lazımdır ki, ərazi yerdəyişməsinə daha çox kişilər məruz qaldıqları üçün həmin ərazilərdə bir qayda olaraq qadınların mütləq sayı artır (1).

Keçid dövrünün dəyişiklikləri Naxçıvan Muxtar Respublikası əhalisinin həyat səviyyəsinin pisləşməsi, sosial-iqtisadi vəziyyətin pisləşməsi, keçmiş istehsal münasibətlərinin dağılması və bazar iqtisadiyyatına keçid, işsizlik və

iş yerlərinin çatışmaması, miqrasiya proseslərinin sürətlənməsi və bir çox digər amillər nəticə etibarı ilə doğumun, nikahın aşağı düşməsinə, ixtisaslı kadrların muxtar respublikadan çıxıb getməsinə (emmiqrasiyasına), ölüm hallarının artmasına və s. səbəb olmuşdur.

Belə ki, miqrasiya prosesində kişilərin iştirakının üstünlük təşkil etməsi əhalinin yaş, cins tərkibinin pozulmasına bu da, öz növbəsində nikahlılığın azalmasına gətirib çıxarır. Hikahların azalmasının başlıca səbəbləri ailə gəlirinin azalması, işsizlik, sosial təminatın aşağı olması, mənzil təminatının olmaması və əhalinin gənc yaş qruplarında kişi və qadın nisbətinin pozulmasıdır. Bununla yanaşı qadın nikahsızlığı səviyyəsinin yüksək olması, yəni ailə qurmamış qadınların  çoxluğu da müşahidə olunur. Bir çox səbəblərlə yanaşı, bu, kişi əhalisinin, xüsusilə kənd yerlərindən nisbətən yüksək miqrasiyası ilə bağlı cins-yaş strukturunun pozulması ilə izah olunur (5).

1990-cı illərə nisbətən son illərdə nikahların sayı xeyli artmışdır. Belə ki, 2000 – 2008 – ci illərdə nikahların sayı 1,7 min nəfər artaraq, 2088-dən 3800-ə qalxmışdır, yəni təqribən 1,8 dəfə artmışdır. Həm də bu illərdə nikahlılığın ümumi əmsalı 1,6 dəfə artaraq, əhalinin hər 1000 nəfərinə görə 5,8-dən 9,8-ə yüksəlmişdir (8).

Yaş həddinə görə əhalinin strukturunun öyrənilməsinin, onun inkişaf istiqamətlərinin təhlil olunmasında, sayının və tərkibinin proqnozlaşdırılmasında, istehlak mallarının istehsalında, səhiyyə və təhsil obyektlərinin inkişafında, habelə əmək ehtiyatlarının sayının müəyyən olunmasında müstəsna rolu vardır. Yaş həddinə görə miqrasiyanın təhlili göstərir ki, miqrantların əksər hisəssini gənclər təşkil edir.

Lakin muxtar respublikanın inzibati rayonları üzrə aparılmış tədqiqat göstərir ki, əvvəlki illərdə əhalinin kənara axını zamanı miqrasiya həm yaşlılar, həm də uşaqlar arasında nəzərəçarpacaq dərəcədə yüksək olmuşdur. Ən çox əhali axını 30-34 yaşında olanlar arasında müşahidə olunmuşdur. Gənclər əhalinin təkrar istehsalının vacib ehtiyat qüvvəsi olduğuna görə, onların miqrasiyası əhalinin təbii artımına birbaşa təsir göstərir.

Naxçıvan Muxtar Respublikası boşanma hallarının azlığına görə respublikanın digər regionlarından fərqlənir. 2000-ci ildə əhalinin hər 1000 nəfərinə 0,5 boşanma qeydə alınmışdır. Bu göstəricilər son illərin ən böyük dəyişikliklərini  əks etdirir. Statistik məlumatlara əsasən boşanmanın hazırkı səviyyəsi 1990-cı illərlə müqayisədə 3 dəfə aşağıdır. Hazırda Muxtar Respublikada boşanma göstəricisi 0,4-dür (6).

Naxçıvan Muxtar Respublikası əhalisinin həyatında baş verən bu  dəyişikliklər əhalinin təbii artım dinamikasında da öz əksini tapmışdır. Təhlil göstərir ki, son 10 il müddətində Muxtar Respublika əhalisinin təbii artımında əvvəlki illərlə müqaisədə artım müşahidə olunmuşdur. İstər əhalinin məşğulluğu, adamların maddi-rifah halının yaxşılaşdırılması, istərsə də yaşayış üçün sağlam mühitin formalaşdırılması, səhiyyə işinin təşkili sahəsində görülən tədbirlər sosial-iqtisadi inkişafın ən mühüm göstəricilərindən biri kimi əhalinin

artımına, demoqrafik vəziyyətinə təsir göstərərək son on il ərzində muxtar respublika əhalisinin artımının 55 min nəfəri ötməsinə şərait yaratmışdır.

Əgər 2000-ci ildə əhalinin mütləq təbii artımı 3,9 min nəfər idisə, 2008-ci ildə 60,2% artaraq 6,2 min nəfərə çatmışdır. Həm də ümumi təbii artım əmsalı 10,7 min nəfərdən 16 min nəfərə qədər artmışdır.

Naxçıvan Muxtar Respublikası əhalisinin miqrasiyasının həcmində, istiqamətlərində, tərkibində və səbəblərində də əhəmiyyətli dəyişikliklər baş vermişdir. Burada əhali miqrasiyasının əsas səbəbi iş yerlərinin artımının iş qüvvəsinin artımından geri qalması və blokada şəraitində yaşayan əhalinin enerji və istiliklə təmin olunmaması idi. Əhalinin başqa regionlara miqrasiyasının səbəbi həm sosial şəraitin çətinliyi, həm də qazanc üçün iş yerləri ilə təmin olunmaq tələbatıdır. Buna görə də həmin əhali uzunmüddətli olsa da müvvəqəti işləmək üçün digər regionlarda pul qazanıb Muxtar Respublikada yaşayan ailəsi üçün göndərməklə məskunlaşmaya müsbət təsir edirlər.

Miqrantların böyük hissəsi müxtəlif ixtisas səviyyəsinə malik fəhlələr, az hissəsi isə yüksək ixtisaslı mütəxəssislərdir. Əhalinin yaş-cins strukturunu və təkrar istehsalın normal gedişinin pozulmasına baxmayaraq, miqrasiyanın muxtar respublikada işsizliyin səviyyəsinin azalmasına, getmiş ailə üzvlərinin göndərdikləri xarici valyuta hesabına büdcəsini artıran ailələrin iqtisadi vəziyyətinin yaxşılaşmasına müsbət təsirini də qiymətləndirməmək olmaz. Ötən əsrin 80-ci illərinin sonunda istehsalın tənəzzülü və müvafiq iş yerlərinin olmaması üzündən yüksək ixtisaslı mütəxəssislərə ehtiyac qalmamışdı. Onların bəziləri başqa strukturlara keçdi, digərləri ixtisaslarını itirdilər, bir qismi isə, Türkiyəyə, Rusiyaya, Qərb ölkələrinə getdilər (1).

Şübhəsiz ki, gələcəkdə istehsal artdıqca, kiçik və orta biznes genişləndikcə, iqtisadiyyata sərmayə qoyuluşu və muxtar respublikada yeni iş yerlərinin yaradılması, işçi qüvvəsinin ərazi yerdəyişməsi istiqamətinin də səmtini əksinə dəyişəcəyini gözləməyə imkan verir. Lakin bu hal, muxtar respublikanın mənafelərini, beynəlxalq norma və standartları nəzərə almaqla, fəal miqrasiya siyasəti aparılmasının əhəmiyyətini və zəruriliyini azaltmır. Demoqrafik şəraitin yaxşılaşması, demoqrafik inkişafda mənfi meyllərin aradan qaldırılması, hər şeydən əvvəl, iqtisadiyyatın və ictimai-siyasi şəraitin sağlamlaşdırılması ilə bağlıdır.

Son illərdə sürətli sosial-iqtisadi inkişaf, energetika və nəqliyyat sahələrində beynəlxalq kominikasiyaların genişlənməsi, eyni zamanda Muxtar Respublikanın yerləşdiyi geosiyasi mövqe burada miqrasiya proseslərinin azalmasına səbəb olmuşdur. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında kənd yerlərində istehsalın yüksəldilməsi, gənclərin istehsala bağlılığının təmin edilməsi, kənd təsərrüfatı sahələrində əl əməyini yüngülləşdirmək məqsədilə yeni texnalogiyanın tətbiq edilməsi, sanitar-məişət xidmətinin yaxşılaşdırılması zəruri hesab olunur.

Tədqiqatlar göstərir ki, kənd sakinlərinin, xüsusilə də gənclərin şəhərə axının qarşısını almaq məqsədilə onların kənd təsərrüfatı peşələrinə marağını

formalaşdırmaq, iş yerləri ilə təmin etmək üçün gələcəkdə sənaye müəsissələrini onların filiallarını kiçik şəhərlərdə, şəhər tipli qəsəbələrdə, əhalisi çox olan kəndlərdə təşkil etmək lazımdır. Muxtar Respublikanın inzibati rayonlarının demoqrafik inkişafına uyğun olaraq kənd yerlərində sosial-iqtisadi infrastrukturun yradılması üçün nəzərdə tutulan kapital qoyuluşlarından səmərəli istifadə olunması kənd əhalisinin axınının qarşısının alınmasına öz müsbət təsirini göstərə bilər.

Kənd yerlərinin mədəni həyatının təmin olunması ilə miqrasiya proseslərini xeyli tənzimləmək mümkündür. Bu baxımda kənddə yaşayan gənclərin maraqları nəzərə alınmaqla mədəni-məişət tədbirləri həyata keçirmək, şəhər və rayon mərkəzləri ilə kəndin əlaqələrini möhkəmləndirmək, nəqliyyat infrastrukturunun əsaslı şəkildə yenidən qurulmasını təmin etmək məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. Abdullayev F.A. Müasir Azərbaycanda miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. Bakı: Azərnəşr, 2009, 328 s.
2. Quliyev C.R. Naxçıvan statistika güzgüsündə - tarixi statistik məcmuə, AEA Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. 1999, 128 s.
3. Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası. Bakı: Bakı Universiteti, 2006, 338 s.
4. Şahverdiyev Z.Ə. Naxçıvan Muxtar Respublikası 1991, 2001-ci illərdə. Naxçıvan, Qismət. 2002, 33 s.
5. Rəhimov N.H. Müasir şəraitdə Naxçıvan MR-də sosial-demoqrafik problemlərin həlli istiqamətləri / Müasir dövrdə milli tərbiyə sisteminin aktual problemləri adlı elmi konfransın materialları. Bakı: Nurlan, 2001, s. 36-37.
6. http: //www nakhchivan. az
7. http: //www 1990 – 1993. nakhchivan. az
8. http: //www dmfanakhchivan.az


## ВЛИЯНИЕ МИГРАЦИОННЫХ ПРОЦЕССОВ НА УРЕГУЛИРОВАНИЕ ДЕМОГРАФИЧЕСКОГО ПОЛОЖЕНИЯ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ


**Х.А.ТАИРОВА**


## РЕЗЮМЕ


В течении многих лет, в результате влияния миграционных процессов на урегулирование демографического положения Нахчыванской Автономной Республики, был изменен уровень соотношения пола, возраста, рождаемости, естественного прироста, смертности, браков, размещения населения, плотность и пр. Учитывая то, что состав иммигрировавшего населения в основном состоял из трудоспособных мужчин, это привело к нарушению поло-возрастного состава, снижению количества браков, уменьшению уровня естественного прироста и к нарушению пропорциональности размещения населения.

С этой точки зрения, есть острая необходимость в исследовании и анализе влияния миграционных процессов на урегулирование демографического положения Нахчыванской Автономной Республики.



**Ключевые слова:** интенсивность миграции, эффективность миграции, внутренняя и внешеняя миграция, добровольная и вынужденная миграция, миграцианный прирост, демографические процессы, трудовые ресурсы.

# THE INFLUENCE OF MIGRATIONAL PROCESSES TO THE REGULATION IN DEMOGRAPHIC SITUATION OF THE AUTONOMOUS REPUBLIC OF NAKHCHEVAN

**H. A.TAHIROVA**

## SUMMARY

İn the course of many years, as a result of the influence of migrational processes on the regulation of the demographic situation in Nakhchevan Autonomous Republic, there have been changes in the level of sex, age, birth, growth, marriage, accommodation, density etc. of the population. The content of immigrating population consisting mainly of working men has led to the violation of sex-age content, a decrease in the number of marriages and natural growth and to the violation of proportion in the settlement of population.

With this respect there is a need to research and analyze the effects of migrational processes on the regulation of demographic situation in the Autonomous Republic of Nakhchevan.

**Key words:** intensity of migration, efficiency of migration, internal and external migration, the organized and unorganized migration, migratory gain, demographic processes, manpower

Redaksiyaya daxil oldu: 30.05.2011-ci il
Çapa imzalandı: 27.07.2011-ci il